**Futbol kralı Pele dekabrın 29-da gecə vəfat edib. Onkoloji xəstəliklər artıq neçə il idi ki, üçqat Dünya çempionuna əzab verirdi. Pelenin 82 yaşı vardı və yəqin ki, heç vaxt o, Tanrıdan bu illəri başqa cür yaşamağı arzulamayıb. Dünyada milyonlarla insanın bütün dövrlərin ən böyük oyunçusu saydıqları futbol kralı başqa nə arzulaya bilərdi ki?!**

# Futbol kralı bizi tərk etdi



İngiltərə millisinin və "Mançester Yunayted" klubunun keçmiş kapitanı, əfsanəvi futbolçu Bobbi Çarlton müsahibələrinin birində qeyd edib ki, futbolu Peleyə görə yaradıblar. Reallıq belə olmasa da, futbol həqiqətən onsuz bəlkə də bu qədər sevilməzdi. Yüzlərlə futbol icmalçısı və azarkeşi Peleni futbolun ən parlaq tərənnümçüsü və tarixin ən yaxşı oyunçusu hesab edirsə, demək o, möhtəşəm oyunu ilə ürəkləri fəth edə bilib.

Meydanda ildırım sürətilə hərəkət edir, qapıya dəqiq və öldürücü zərbələr vururdu. Hətta yaşıl meydanlarla vidalaşandan sonra belə Pele hər yerdə həmişə böyük coşqu ilə qarşılanırdı. Az bir müddətdən sonra ictimai xadim kimi ekoloji mühitin sağlamlaşdırılması və yoxsul insanların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərirdi.

Vətəni Braziliyada milli qəhrəman olan futbol kralı, dünyada milyonlarla futbolsevərin kumirinə çevrilmişdi.

Braziliya futbolunun uğurlarını əsasən yeniyetmələrə bütün il boyu top qovmağa imkan verən Cənub ehtirası, isti iqlim və təbii ki, əhalinin əksər hissəsinin kasıb olması ilə əlaqələndirirlər. Sadə ailədə dünyaya göz açan hər bir oğlan uşağı həyata atılanda başa düşür ki, onun üçün xoş güzəran və təmtəraqlı yaşayış yaxşı futbolçu olmaqdan başlayır.

1940-cı ildə Braziliyanın cənub-şərqində Tres-Korasoyns şəhərində dünyaya göz açan Edson Arantis du Nasimentu da məhz belə bir yolun yolçusu olub.

Oktyabrın 21-də anadan olan uşağa valideynləri amerikalı ixtiraçı, "elektrik kralı" Tomas Edisonun şərəfinə Edson adını qoyurlar, çünki bir müddət əvvəl onların kasıb evinə işıq çəkmişdilər. Ancaq bu addan "İ" hərfinin niyə atılması naməlum qalır.

Sonra Edsonun ailəsi Bauru şəhərinə köçür və yeniyetmə kafelərin birində işləyib ailəyə dəstək olur. Balaca Edsona futbol oynamağı atası öyrədir. Ancaq valideynlər o qədər yoxsul idilər ki, gələcək çempiona bir top belə ala bilmirdilər. Edson isə içinə əski doldurulmuş corabla məşq edirdi.

"Pele" ləqəbini ona məktəb yoldaşları verir, amma özləri də bunun mənasını bilmirlər. Bu ləqəb onun xoşuna gəlmirdi, çünki portuqal sözünə bənzəyirdi və mənası "uşaq kəkələməsi" idi.

Yeniyetmə ikən o, yerli həvəskar futbol komandalarında oynayırdı. O zaman Braziliyada qapalı yerlərdə futbol çox populyarlaşmışdı. Pele bunu böyük stadionlardakı oyundan daha çox sevirdi. "Mən orada özümü balıq suda olan kimi hiss edirdim, – deyə Pele sonralar xatırlayacaqdı. – "Burada məqamında qərar verməyi bacarmalısan". O, Minas-Jerays ştatında keçirilən üç yarışda şəhərin gənclərdən ibarət "Atletik" klubunun kapitanı idi və artıq elə burada hamı onun parlaq bir istedad olduğunu gördü.

1956-cı ilin iyununda məşqçi Valdemar de Brito 15 yaşlı Peleni peşəkar "Santos" klubuna dəvət edir və klubun direktoruna deyir ki, az bir vaxtdan sonra bu oğlan dünyanın ən yaxşı futbolçusu olacaq.

Bir il sonra Pele "Santos"un əsas heyətində meydana çıxır və elə ilk oyundaca qol vurur. Mövsümün sonunda isə Braziliya futbol liqasının bombardiri olur. 10 aydan sonra onu ölkənin milli komandasına daxil edirlər. Pele özünün beynəlxalq karyerasının ilk oyununu Rio-de-Janeyronun məşhur "Marakana" stadionunda Argentina millisinə qarşı keçirir. Bir müddət əvvəl dizindən zədələndiyi üçün ölkənin idman rəhbərləri onu 1958-ci il Dünya çempionatına aparmaq istəmirdilər, lakin komanda yoldaşları onları fikirlərindən daşındıra bildilər. Pelenin Dünya çempionatında ilk oyunu SSRİ yığma komandasına qarşı oldu.

Dörddəbir matçda Uels millisinə qarşı oyunda Pele əla zərbə ilə rəqibin qapısına möhtəşəm bir qol vurur və Dünya çempionatında qol vuran ən gənc oyunçu kimi rekorda imza atır. Fransa millisinə qarşı yarımfinal matçında da Pele komandasının ikinci qolunu vurub millisinin qələbəsini təmin edir.

Finalda İsveçə qarşı oyunda Pele iki qol vurur. Braziliya 5-2 hesabı ilə qalib gələrək ilk dəfə Dünya çempionu titulu qazanır. Sonrakı illərdə Braziliya daha dörd dəfə Dünya kubokunu qazanaraq, tarixdə qitənin ən uğurlu millisi olur.

Ölkəyə qayıdandan sonra Pele "Santos"la bərabər yenidən Braziliya çempionu adını qazanır və ikinci dəfə liqanın ən yaxşı bombardiri olur. Həmin mövsümdə Pele rəqib qapılarından 58 qol keçirir ki, bu, Braziliya milli çempionatlarının indiyədək dəyişməyən rekordu kimi qalmaqdadır.

1962-ci ildə "Santos" tarixi matç sayılan "Benfika" ilə qarşılaşmada qalib gəlir. Pele həmin oyunda iki qol vurur. Həmin illərdə dövrün ən yaxşı qapıçılarından sayılan Kosta Pereyra yazır: "Mən ümid edirdim ki, bu dahi insanı dayandıraram, lakin bizdən fərqli olaraq başqa planetdə dünyaya gələn həmin adam məni üstələdi".

"Mançester Yunayted", "Real Madrid" kimi zəngin klublar dünyanın ən yaxşı oyunçusu ilə müqavilə bağlamağa sonsuz cəhdlər edirlər. Buna cavab olaraq Braziliya hökuməti xüsusi fərmanla Peleni milli sərvət elan etdi və ona xarici klublarda oynamaq qadağan olundu.

1962 və 1966-cı illərdə keçirilən Dünya çempionatlarında Pele bütün ustalığını istədiyi kimi nümayiş etdirə bilmədi. O, bütün komandaların müdafiəçiləri üçün əsas hədəf idi. Ona qarşı çox sərt və kobud şəkildə oynayırdılar ki, hər iki turnirdə zədələnməsi üzündən Dünya çempionatının sonuna qədər oynaya bilmədi. Buna baxmayaraq, 1970-ci ildə Meksikada keçirilən mundial 30 yaşlı futbol kralı üçün möhtəşəm bir zəfər oldu. Pele həmin turnirdə dörd qol vurdu, o cümlədən İtaliya ilə finalda da fərqləndi. Beləliklə, Braziliya üçüncü dəfə Dünya kubokuna sahib oldu və onu həmişəlik özündə saxlamaq hüququ qazandı.

Həmin komandanın heyəti Braziliya futbolunun tarixində ən yaxşılardan sayılır. Pele ilə birlikdə heyətdə Jarjinyo və Rivelino kimi dünya səviyyəli ulduzlar oynayırdı. Amma Pele çox yüksəkdə idi. Yeri gəlmişkən, həmin vaxt sputnik televiziyası inkişaf etdiyindən Meksika mundialı ilk dəfə birbaşa efirdə bütün dünyaya yayımlandı.

Pele bu günə qədər tarixdə yeganə futbolçudur ki, milli komandanın heyətində üç dəfə dünya çempionu olub. Rəqib qapısı qarşısında Pele son dərəcə dəqiq idi. Onu əksər vaxtlarda meydanı qolsuz tərk etməyən futbolçu adlandırırdılar. 1969-cu ildə o özünün peşəkar karyerasında 1000-ci qolunu vurdu. Əlbəttə, çoxlarının arzuladığı kimi gözəl kombinasiyadan sonra deyil, 11 metrlik cərimə zərbəsindən.

Peşəkar karyerası ərzində Pele 1363 oyunda 1281 qola imza atıb. Onlardan 1091-ni "Santos"un heyətində keçirdiyi 1116 oyunda vurub. 77 qolu isə milli komandada keçirdiyi 92 matçda vurub ki, bu da dünya rekordu hesab edilir.

Pele Braziliya millisinin heyətində son oyununa 1971-ci il iyulun 18-də Rio-de-Janeyroda keçmiş Yuqoslaviya komandasına qarşı matçda çıxıb. "Santos"un heyətində isə son oyununu 1974-cü ildə oynayıb.

1999-cu ildə Beynəlxalq Olimpiya Komitəsi Peleni tarixin ən böyük idmançısı elan etdi. O həmçinin FİFA-nın versiyasına görə XX əsrin ən yaxşı futbolçusu və bütün dövrlər üçün dünyanın rəmzi yığma komandasının üzvü hesab edilir.

Pelenin həyatında qara zolaqlar da az olmayıb. 1960-cı illərin ortalarında ulduz futbolçu ciddi pul problemləri ilə üzləşir və böyük borca düşür. Özünün dediyinə görə buna səbəb onun maliyyə məsləhətçiləri olur. O zaman Braziliyada hakimiyyətdə olan hərbçilər futbol ulduzunun solçulara rəğbəti səbəbindən təhqiqatlar aparırlar.

1975-ci ildə Pele heç kimin gözləmədiyi bir vaxtda Nyu-Yorkun "Kosmos" klubu ilə müqavilə imzalayır və həmin dövrdə dünyanın ən çox qazanan futbolçusu olur. O, sonralar deyirdi ki, bu addımı öz borclarını qaytarmaq və ABŞ-da məşhurlaşmaq səbəbindən atıb. Peleyə qədər ABŞ-da yalnız amerikan futbolunu tanıyırdılar. 1976-cı ildə "Kosmos" Şimali Amerika futbol liqasının qalibi oldu və Pelenin gəlişi ilə matçlara tamaşaçı sayı on dəfə artdı. Pele meydana son dəfə 1977-ci il oktyabrın 1-də keçirilən "Kosmos" və onun doğma klubu "Santos"la yoldaşlıq görüşündə çıxıb. Həmin matçda futbol kralı birinci hissə "Kosmos"un, ikinci hissə isə doğma "Santos"un heyətində oynayıb.

İdman dühası Pele öz möhtəşəm oyunu ilə milyonlarla insana sonsuz sevinc yaşadıb. O həm öz yerli, həm də rəqib azarkeşləri tərəfindən dərin hörmətə malik idi. Məşhur macar mərkəz hücumçusu Frenç Puşkaş deyib: "Peleni sadəcə böyük idmançı hesab etmək olmaz, o daha yüksəkdə idi".

Amma mənə elə gəlir ki, Pelenin nadir istedadını Nelson Mandelodan yaxşı ifadə edən olmayıb: "Onun oyununu müşahidə edərkən, biz uşaq şövqü və yetkin kişilik görürdük".

Pele isə ömrünün sonuna yaxın müsahibələrinin birində deyirdi: "Mən top üçün darıxıram. Meydança üçün, stadiondan aldığım enerji üçün, yaxşı nəticələr uğrunda mübarizə üçün darıxıram. Hər qələbədən sonrakı sevinc və hətta məğlubiyyətdən sonrakı qəm üçün belə darıxıram. İndi də yuxularda görürəm ki, topla qaçıram və qollar vururam".

Bundan sonra daha nə o yuxular olacaq, nə də xəstəlikdən çəkilən əzablar. Kilian Mbappenin yazdığı kimi: "Futbol kralı bizi tərk etdi, ancaq onun irsi heç zaman unudulmayacaq. Rahat uyu, Kral!"

Bu günlərdə bütün dünya futbol kralı ilə vidalaşır. Dünyanın ən müxtəlif nəşrləri, elektron medialar, sosial şəbəkələr futbol dühasını özünəməxsus ehtiramla və xoş sözlərlə yola salır. Hansından başlayıb, hansından qurtaracağını bilmirsən. Hər bir fikirdə futbola planetin əbədi vətəndaşlığını qazandıran Peleyə sanki son borc qaytarılır. Futbol ulduzları, klublar sosial şəbəkələrdə öz acılarını bölüşsələr də, Pelenin əbədiyyət qazandığına heç kim şübhə etmir. Onun davamçısı Neymar öz ustadı və kumiri ilə çox gözəl xudahafizləşir: "Peleyə qədər 10 nömrə sadəcə rəqəm idi. Nə vaxtsa mən bu sözləri oxumuşam. Ancaq bu gözəl cümlə tam deyil. Mən deyərdim ki, Peleyə qədər futbol sadəcə idman idi. Pele hər şeyi dəyişdi. O futbolu incəsənətə və əyləncəyə çevirdi. O kasıblara və qaradərililərə səs verdi. Ən vacib olan bilirsiz nədir, o hamıya Braziliyanı göstərdi. Kralın sayəsində futbolun və Braziliyanın statusu qalxdı".

O getdi, lakin onun sehri qalır. Pele əbədidir!

**Hazırladı: İlqar RÜSTƏMOV, "Xalq qəzeti"**

